НАЦИОНАЛЬНАЯ АКАДЕМИЯ НАУК АЗЕРБАЙДЖАНА
ИНСТИТУТ ГЕОГРАФИИ им. акад. Г.А.АЛИЕВА

*На правах рукописи*

**МАМЕДОВА ФЛОРА ВАХИД кызы**

# ОСНОВНЫЕ НАПРАВЛЕНИЯ НАУЧНОЙ ДЕЯТЕЛЬНОСТИ АКАДЕМИКА Б.А.БУДАГОВА И ЕГО РОЛЬ В РАЗВИТИИ ГЕОГРАФИЧЕСКОЙ НАУКИ АЗЕРБАЙДЖАНА

54.08.01. Физическая география и биогеография, география почв, геофизика и геохимия ландшафтов

**А В Т О Р Е Ф Е Р А Т**

диссертации на соискание ученой степени
доктора философии по географии

**БАКУ-2013**

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
AKADEMİK H.Ə.ƏLİYEV adına COĞRAFİYA İNSTİTUTU

*Əlyazması hüququnda*

**FLORA VAHİD qızı MƏMMƏDOVA**

# AKADEMİK B.Ə.BUDAQOVUN ELMİ YARADICILIĞININ ƏSAS İSTİQAMƏTLƏRİ VƏ AZƏRBAYCAN COĞRAFİYA ELMİNİN İNKİŞAFINDA ONUN ROLU

54.08.01. Fiziki coğrafiya və biocoğrafiya, torpaq coğrafiyası, landşaftların geofizikası və geokimyası

Coğrafiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim olunmuş dissertasiyanın

**A V T O R E F E R A T I**

**BAKI – 2013**

Ali Attestasiya Komissiyası
Daxil olma № 190,02/08
"06" 05 2013 il

Dissertasiya işi Azərbaycan Milli Elmlər Akademiyası akademik H.Ə.Əliyev adına Coğrafiya İnstitutunun "Xəritəçəkmə və coğrafi informasiya" şöbəsində yerinə yetirilmişdir.

**Elmi rəhbər:** **H.A.Xəlilov**
coğrafiya elmləri doktoru

**Rəsmi opponentlər:** **X. K. Tanrıverdiyev**
coğrafiya elmləri doktoru

**Y.Ə.Qəribov**
coğrafiya elmləri namizədi, dosent

**Aparıcı müəssisə:** Azərbaycan Dövlət Pedaqoji Universiteti Coğrafiya və ÇH fakültəsinin Ümumi coğrafiya kafedrası

Dissertasiyanın müdafiəsi 05 aprel 2013-cü il saat $14^{00}$–da Azərbaycan Milli Elmlər Akademiyası akademik H.Ə.Əliyev adına Coğrafiya İnstitutu nəzdində fəaliyyət göstərən D.01.091 Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

**Ünvan:** Az 1143, Bakı şəhəri, H.Cavid pr. 31, AMEA akademik H.Ə.Əliyev adına Coğrafiya İnstitutu.

Dissertasiya işi ilə AMEA Coğrafiya İnstitutunun kitabxanasında tanış olmaq olar.

**Rəyləri möhürlə təsdiq olunmuş iki nüsxədə bu ünvana göndərməyinizi xahiş olunur:** Az 1143, Bakı şəhəri, H.Cavid pr. 31, AMEA akademik H.Ə.Əliyev adına Coğrafiya İnstitutu.

Avtoreferat 04 mart 2013-cü ildə göndərilmişdir.

**D.01.091 Dissertasiya Şurasının elmi katibi, coğrafiya üzrə fəlsəfə doktoru, dosent** **M.S.HƏSƏNOV**

## İŞİN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı.** Elmin gələcək istiqamətlərini və inkişaf perspektivlərini düzgün proqnozlaşdırmaq üçün elm tarixi zəngin ənənələri olan böyük təcrübə məktəbidir. Zaman və məkan daxilində elmin keçdiyi təkamül yolunu, elmi axtarışların mahiyyətini, fəlsəfəsini, əldə olunan nəticələrin əhəmiyyətini öyrənmədən yeni nailiyyətlər qazanmaq çox çətindir. Ona görə də, bu sahənin qarşısında duran mühüm vəzifələrdən biri elmin müxtəlif istiqamətlərində uğurlar əldə etmiş alimlərin yaradıcılıqlarının tədqiqi, ümumiləşdirilməsi və gələcək nəsillərə çatdırılmasıdır.

Bu baxımdan Azərbaycan coğrafiya elminin inkişafında əvəzsiz xidmətləri olmuş akademik B.Ə.Budaqovun elmi yaradıcılığının tədqiqi müasir coğrafiya elminin nəzəri-praktiki əsaslarının öyrənilməsində mühüm əhəmiyyət daşıyır və öz aktuallığı ilə seçilir. Bu aktuallığı aşağıdakı kimi ümumiləşdirmək olar:

1. Alimlər – tarixi şəxsiyyətlərdir. Onların həyat və yaradıcılıqlarının araşdırılması zaman və məkan daxilində yaşadıqları dövrün elmi, ictimai-siyasi, mədəni-maarif mühitinin öyrənilməsində böyük əhəmiyyətə malikdir. Bu baxımdan B.Ə.Budaqovun yaradıcılığının tədqiqi Azərbaycan elminin, tarixinin, mədəniyyətinin inkişafının 60 ildən artıq bir dövrünün öyrənilməsinə böyük töhfələr verə bilər.

2. B.Ə.Budaqov keçən əsrin 50-ci illərindən sonra Azərbaycanda coğrafiya elminin inkişafını təmin edən alimlərdən biri olmuşdur. Xüsusilə Böyük Qafqazın Azərbaycan hissəsinin geomorfologiyası, buzlaşması, landşaftı, ən yeni tektonikası, paleocoğrafiyası, ekocoğrafiyası və s. sahələrində bugünkü tədqiqatların bünövrəsi onun yaradıcılığına əsaslanır.

3. B.Ə.Budaqov keçmiş SSRİ məkanında təbii-dağıdıcı prosesləri öyrənən yüksək ixtisaslı mütəxəssislərdən biri kimi şöhrət qazanmışdır. Təbii fəlakətlərin tüğyan etdiyi müasir dövrümüzdə akademikin yaradıcılığına müraciət etməyin, müasir düşüncə müstəvisində bu məsələlərə yenidən nəzər salmağın ekogeomorfoloji məsələlərin həllində böyük elmi-praktiki əhəmiyyəti ola bilər.

4. B.Ə.Budaqovun toponimika sahəsindəki tədqiqatlarının əsas qayəsini Azərbaycan xalqının tarixi taleyi, Azərbaycanın, eləcə də

türk uluslarının dünyada mövqeyi və türk xalqlarının bəşər tarixində rolu məsələsi təşkil edir. Bu baxımdan alimin əsərləri və tərtib etdiyi lüğətlər türk xalqlarının tarixi köklərinin, qədim yurd yerlərinin araşdırılıb gələcək nəsillərə çatdırılması, milli-etnik zənginliyimizin öyrənilməsi, türklərin, o cümlədən azərbaycanlıların tarixi-coğrafi arealını, tarixi-etnik mənşəyini, təşəkkül və inkişaf tarixini əks etdirən çox dəyərli qaynaqlardır.

5. B.Ə.Budaqovun elmi və ictimai ideyaları, dünya görüşü konkret olaraq mənsub olduğu xalqın həyatı, tarixi taleyi, tərəqqisi ilə bağlı olan, birbaşa Vətənə və xalqa xidmət meyarlarıdır. Bu baxımdan onun yaradıcılığının əsas mövzularından biri bu gün aktuallığı ilə seçilən "erməni genosidi" mövzusudur. Alimin bu mövzuda yazdığı əsərlər hazırkı milli və müstəqil dövlət quruculuğu prosesində mühüm dəyəri olan nümunələr və tarixi düşmənlərimizə layiqli cavabdır.

6. B.Ə.Budaqovun yaradıcılığı insanları elm öyrənməyə, əməksevərliyə və yaradıcı fəaliyyətə dəvət edir. Onun elmi yaradıcılığının bir sahəsini təşkil edən elmi-pedaqoji fəaliyyətində məktəb coğrafiyası, kadr hazırlığı, dərsliklərin yazılması, müxtəlif məzmunlu xəritələrin tərtibi və başqa dillərdən Azərbaycan dilinə tərcümələri, onların nəşri, müəllimlər üçün elmi-metodiki göstərişlərin hazırlanması, gənc nəslin vətənpərvərlik ruhunda tərbiyəsi və s. kimi məsələlər öz əksini tapır. Ona görə də B.Ə.Budaqov tək alim kimi yox, həm də bir müəllim, tərbiyəçi, təşkilatçı kimi tədqiq olunmalı, onun fikirlərindən və həyati təcrübəsindən geniş istifadə edilməlidir.

7. B.Ə. Budaqovun elmi-bədii zənginliyinə görə diqqəti cəlb edən publisistikası təbii-tarixi-mənəvi-ədəbi irsimizin qorunmasında, Azərbaycan xalqının tarixi keçmişinin müəyyən dövrünün öyrənilməsində qiymətli və zəngin tarixi mənbə olmaqla digər elm sahələri (pedaqogika, tarix, filologiya və s.) üçün də maraqlı tədqiqat obyektidir.

8. B.Ə.Budaqov elmi yaradıcılığında və ictimai fəaliyyətində türkçülük ideologiyası ilə yanaşı, islamçılıq ideologiyasının da əsas təbliğatçılarından biri olmuşdur. Alimin dini mövzular sahəsindəki



tədqiqatlarını onun yaradıcılıq istiqamətlərindən biri kimi qiymətləndirmək olar.

**Tədqiqatın məqsəd və vəzifələri.** Dissertasiya işinin əsas məqsədi akademik B.Ə.Budaqovun elmi yaradıcılığının əsas istiqamətlərini araşdırmaq, onun coğrafiya elminin inkişafındakı rolunu və nailiyyətlərini təhlil edərək ümumiləşdirmək və qiymətləndirməkdir. Bu məqsədə nail olmaq üçün qarşıya aşağıdakı vəzifələr qoyulmuş və həll edilmişdir:

- elmi yaradıcılığında coğrafiyanın əsas istiqamətləri (geomorfologiya, landşaftşünaslıq, qlyasiologya, neotektonika, toponimika, ekologiya) sahəsindəki fəaliyyətinin araşdırılması və əldə etdiyi uğurların müəyyənləşdirilməsi;
- coğrafiya ilə elmin digər sahələri (ədəbiyyat, tarix, din, xalq yaradıcılığı və s.) arasındakı əlaqənin onun yaradıcılığında mövqeyi və əhəmiyyətinin araşdırılması;
- Azərbaycan coğrafiya elmi və ümumilikdə elm və təhsilin inkişafı sahəsində rolunun müəyyən edilməsi;
- elmi yaradıcılığının səciyyəvi və yenilikçi xüsusiyyətlərinin aşkar edilməsi;
- elmi tədqiqatlarının nəticələrinin tətbiqi məsələlərinin əhəmiyyətinin təhlil edilməsi.

**Tədqiqatın nəzəri və metodoloji əsası.** Tədqiqatın nəzəri əsasını elmin gələcək inkişafının təmin edilməsinin onun keçmiş inkişaf tarixinin öyrənilməsi ilə sıx əlaqədə olması, mövzuya sistemli elmi yanaşma və bu sahədə görkəmli elm xadimlərinin tədqiqatları təşkil edir. Dissertasiya işi coğrafiya və ictimai elmlərin müxtəlif sahələrini əhatə etdiyindən onun yerinə yetirilməsində coğrafi, tarixi-müqayisə, analiz və sintez və s. kimi kompleks üsullardan istifadə edilmişdir.

**Tədqiqatın obyekti və mənbələri.** Dissertasiya işinin tədqiqat obyektini B.Ə.Budaqovun elmi yaradıcılığı, mənbəyini isə onun əsərləri, məruzə və çıxışları, elmi hesabatları, məktubları, tərtib etdiyi çoxsaylı xəritələr və xəritə-sxemlər, eləcə də alimin elmi irsinin müxtəlif sahələrini tədqiq etmiş elm və mədəniyyət xadimlərinin fikirləri təşkil edir.

**Elmi yeniliklər.** Mövzu üzrə məlumatların toplanması, sistemləşdirilməsi və elmi təhlili əsasında əldə edilmiş elmi yenilikləri aşağıdakı kimi ümumiləşdirmək olar:
- B.Ə.Budaqovun elmi yaradıcılığının və elmi-təşkilati fəaliyyətinin əsas mahiyyəti ilk dəfə olaraq kompleks şəkildə dissertasiya səviyyəsində araşdırılmışdır;
- coğrafiyanın ayrı-ayrı sahələrinə (geomorfologiya, landşaftşünaslıq, qlyasiologiya, toponimika və s.) aid nəzəri baxışları özündən əvvəlki və öz dövrünün coğrafi fikirləri ilə müqayisəli təhlil edilmiş və onların obyektivliyi aydınlaşdırılmışdır;
- Azərbaycan elminin dünyada tanıdılması və dünya elmində olan yeniliklərin Azərbaycan elminə tətbiqi sahəsindəki fəaliyyəti öyrənilmişdir;
- elmi tədqiqatlarının nəticələrinin, tövsiyə və təkliflərinin elmi əhəmiyyəti və tətbiqi sahələri müəyyənləşdirilmişdir;
- Azərbaycan, keçmiş sovet və dünya elminə gətirdiyi yeniliklər mühüm elmi məsələlər kimi araşdırılmışdır;
- dissertasiya işi Yer elmləri sistemində elm korifeylərinin yaradıcılığına həsr edilmiş ilk işdir.

**Müdafiə edilən əsas müddəalar:**

1. Relyefin inkişaf qanunauyğunluqlarının və geodinamik proseslərin öyrənilməsi sahəsindəki tədqiqatların nəticələri;
2. Landşaftşünaslıq-geomorfologiya, landşaftşünaslıq-tektonika, landşaftşünaslıq-ekologiya və landşaftşünaslıq-insanın təsərrüfat fəaliyyəti istiqamətlərini əhatə edən tədqiqatlar və onların mahiyyəti;
3. Coğrafi terminlər, coğrafi adlar, toponimik lüğətlərlə bağlı tədqiqatların əhəmiyyəti;
4. Ekologiya və təbiəti mühafizə sahəsindəki tədqiqatların Azərbaycan təbiətinin qorunmasında və geoekologiyanın inkişafında rolu;
5. Məktəb coğrafiyası, kadr hazırlığı, coğrafiya tarixi və publisistika sahəsində fəaliyyətin əhəmiyyəti.

**Tədqiqat işinin təcrübi əhəmiyyəti.** Dissertasiya işi Azərbaycanda coğrafiya elminin inkişafında rolu olmuş şəxsiyyətlərin, ümumiyyətlə, elm korifeylərinin tanıdılmasında və bütövlükdə coğrafiya elminin tarixinin öyrənilməsində maraqlı məlumat



mənbəyidir. Dissertasiyadan universitetlərin müvafiq fakültə və kafedralarında coğrafiya fənninin tədrisində, dərslik, dərs vəsaiti və digər ümumiləşdirilmiş əsərlərin yazılmasında istifadə edilə bilər.

Dissertasiyadan həmçinin insanların əmək fəaliyyətinin düzgün istiqamətləndirilməsi, sənaye, kənd təsərrüfatı, rekreasiya və başqa sahələrin məqsədyönlü yerləşdirilməsi və s. məqsədləri üçün istifadə etmək olar.

**İşin aprobasiyası.** Dissertasiya işinin əsas nəticələri aşağıdakı elmi konfrans və seminarlarda müzakirə edilmişdir:

- BDU-da akad. H.Ə.Əliyevin 85 illik yubileyinə həsr edilmiş "Coğrafiyanın müasir problemləri"elmi konfransda (Bakı, 2008);
- Turizm Nazirliyi və Turizm İnstitutunun "Turizm və rekreasiya: problemlər və perspektivlər" mövzusunda keçirilən ikinci Respublika elmi-praktiki konfransda (Bakı: 2008);
- AMEA-nın müxbir üzvü R.M.Məmmədovun anadan olmasının 60 illiyinə həsr edilmiş Azərbaycan Coğrafiya Cəmiyyəti və AMEA akademik H.Ə.Əliyev adına Coğrafiya İnstitutunun "Xəzər dənizi və ətraf regionların ekosistemləri: təhlükə və risklər" mövzusunda elmi-praktiki konfransda (Bakı, 2010);
- "Azərbaycan və onunla qonşu ölkələrin təbii-təsərrüfat sistemlərinə iqlimin qlobal dəyişməsinin təsirinin qiymətləndirilməsi" problemlərinə həsr edilmiş beynəlxalq elmi konfransda (Bakı: 2010);
- Azərbaycan Coğrafiya Cəmiyyəti və AMEA akademik H.Ə.Əliyev adına Coğrafiya İnstitutunun "Azərbaycan landşaftlarının optimallaşdırılması, səmərəli təşkili və davamlı inkişafının müasir problemləri" mövzusunda elmi-praktiki konfransda (Bakı, 2011);
- AMEA akademik H.Ə.Əliyev adına Coğrafiya İnstitutunun seminarlarında (2011, 2012).

Dissertasiya işinin mövzusu üzrə 10 tədqiqat işi, o cümlədən beş konfrans materialı nəşr edilmişdir.

**Həcmi və quruluşu.** Dissertasiya işi giriş, 5 fəsil, nəticə və 271 adda ədəbiyyat siyahısından ibarətdir. 1 xəritə-sxem, 3 sxem, 4 cədvəl də daxil olmaqla işin ümumi həcmi 165 kompüter səhifəsini əhatə edir.

**Sxem1.**

**Akademik B.Ə.Budaqovun elmi fəaliyyətinin əsas istiqamətləri və bu istiqamətlər üzrə yazdığı əsərlər, hazırladığı kadrlar (sayla və faizlə).**






# İŞİN QISA MƏZMUNU

**Girişdə** dissertasiya işinin aktuallığı, istifadə olunmuş materiallar və metodlar haqqında qısa məlumat verilir.

**I Fəsil. B.Ə.Budaqovun geomorfologiya və paleocoğrafiya sahəsində tədqiqatları**

Fəsil B.Ə.Budaqovun geomorfologiyanın və paleocoğrafiyanın müxtəlif məsələlərinə həsr edilmiş tədqiqatlarına və bu tədqiqatların elmi-praktiki əhəmiyyətinə həsr edilib.

**1.1. Ümumi geomorfoloji tədqiqatlar və onların nəticələri.** Burada B.Ə.Budaqovun elmi fəaliyyətinin ilkin dövrlərindən başlayaraq geomorfologiya sahəsində apardığı fundamental tədqiqatlardan, bir çox elmi-nəzəri problemlərin (relyefin morfostruktur və morfoskulptur təhlili, inkişaf tarixi və müasir dinamikası, yeni tektonik hərəkətlər, geomorfoloji rayonlaşma və xəritələşdirmənin metodikası və s.) həllində əldə etdiyi nailiyyətlərdən bəhs edilir.

1955-1965-ci illər Azərbaycan geomorfologiyasının geniş miqyasda tədqiqat dövrü olmuşdur. Bu dövrdə B.Ə.Budaqovun başa çatdırdığı elmi-tədqiqat işlərinin nəticəsi olaraq onun respublikada geomorfologiya elmi sahəsində ilk monoqrafik əsəri olan "Cənub-Şərqi Qafqazın şimal yamacının geomorfologiyası" kitabı (1957) işıq üzü görür. Bununla yanaşı, onun Moskva və Azərbaycan həmkarları ilə birlikdə hazırladıqları və nəşr etdirdikləri (1956, 1959, 1973) əsərləri keçmiş SSRİ məkanında ilk fundamental əsərlər olmaqla, İttifaq miqyasında və bir sıra xarici ölkələrdə Azərbaycanın geomorfologiyası ilə tanışlığa təkan verir, respublikada yenicə yaranmaqda olan geomorfologiya elminin özülünün qoyulmasına əlverişli mühit yaradır.

B.Ə.Budaqovun "Cənub-Şərqi Qafqazın geomorfologiyası və yeni tektonikası" (1973) adlı fundamental monoqrafik əsəri Ümumittifaq müsabiqəsində SSRİ Coğrafiya Cəmiyyətinin N.İ.Prijevalski adına Qızıl medalına layiq görülür (1978).

B.Ə.Budaqov Azərbaycanda geomorfoloji xəritələşdirmə prinsiplərinin bünövrəsini qoyan ilk tədqiqatçılardan biri olmuşdur. Onun ilk dəfə olaraq tərtib etdiyi Azərbaycanın Böyük Qafqaz hissəsinin 1:200000 və 1:500000 miqyaslı geomorfoloji xəritələri

ərazinin çox mürəkkəb relyefini tam dolğunluqla əks etdirən fundamental elmi əsər kimi qiymətləndirilir. B.Ə.Budaqov həmçinin 1965-ci ildə başa çatdırılan respublika ərazisinin 1:200000 miqyaslı geomorfoloji xəritəsinin müəlliflərindən biri olmuşdur.

B.Ə.Budaqovun Azərbaycanın Böyük Qafqaz hissəsində elmi əsaslarla təklif etdiyi rayonlaşma sxemi (vilayət, yarımvilayət, yüksəklik qurşaqları, rayon və yarımrayon) tədqiq olunan ərazinin geomorfoloji quruluşunun ən mühüm keyfiyyətlərini qabarıq əks etdirməklə yanaşı, gələcək geomorfoloji tədqiqatların istiqamətləndirilməsi üçün əlverişli imkan yaratmışdır.

**1.2. Düzəlmə səthi, dəniz və çay terraslarının öyrənilməsi və onların korrelyasiyası.** B.Ə.Budaqov Böyük Qafqazın Azərbaycan hissəsində müxtəlif mənşəli 8 düzəlmə səthi ayırmış, onların səviyyələrini və yaşlarını dəqiqləşdirmiş, ilk dəfə olaraq Şahdağ və Şahyurdu düzəlmə səthlərini müxtəlif yaşlı (sarmatadək və sarmatdan sonra) müstəqil səthlər kimi ayırmışdır.

B.Ə.Budaqov Xəzər dənizinin sahili boyunda tektonik hərəkətlərin və dənizin səviyyəsinin tərəddüdü nəticəsində yaranmış müxtəlif mənşəli və yaşlı 14 terras müəyyən etmişdir. Dəniz terraslarının öyrənilməsi bir çox elmi problemlərin həlli - Xəzər dənizinin son geoloji dövrdə keçdiyi mürəkkəb inkişaf yolunun bərpa edilməsi, bu terrasların çay terrasları, düzəlmə səthləri və başqa relyef formaları ilə uzlaşdırılması relyefin əsas inkişaf mərhələləri üzrə təkamülünün bərpa edilməsi baxımından mühüm elmi əhəmiyyət daşıyır.

Alim çay terraslarını da öyrənmiş, onların yaranma və müxtəlif yüksəklik qurşaqlarında saxlanılma səbəbləri, morfologiyası, mənşəyi, əmələgəlmə mərhələləri haqqında dəyərli məlumatlar toplamışdır. O, ədəbiyyat materiallarının təhlilinə və öz şəxsi tədqiqatlarının nəticələrinə əsaslanaraq ərazi daxilində həm yaş, həm də yüksəklik etibarilə bir-birinə yaxın olan 14-ə qədər çay terrası ayırmış, onların geomorfoloji xüsusiyyətlərini şərh etmişdir.

**1.3. Relyefin neotektonik mərhələdəki inkişaf tarixinin öyrənilməsi və yeni tektonik hərəkətlərin aşağı sərhədinin müəyyən edilməsi.** B.Ə.Budaqovun tədqiqatlarında ona uğur gətirən işlərdən biri də, ilk dəfə olaraq, Azərbaycanın Böyük Qafqaz



hissəsinin relyefinin geoloji inkişaf tarixinin öyrənilməsi, onun formalaşmasında həlledici rol oynamış yeni tektonik mərhələnin başlanğıcının müəyyən edilməsi və s. kimi mübahisəli məsələlərin həllinə aydınlıq gətirməsi olmuşdur. O, 1956-cı ildə Şahdağın şərq yamacında 3600 m yüksəklikdə ilk olaraq aşkar etdiyi üst sarmat yaşlı dəniz faunası qalıqlarına əsaslanmaqla neotektonik mərhələnin başlanğıcının üst sarmatdan sonrakı dövrə uyğun gəldiyini və Böyük Qafqazın son 13-14 milyon il ərzində 3600 m-dən çox qalxdığını sübut etmişdir. B.Ə.Budaqov bu fakta söykənərək Azərbaycan ərazisində relyefin bünövrəsini təşkil edən morfostrukturların yaşını, quruluşunu, təkamül qanunauyğunluqlarını, formalaşma mərhələlərini öyrənmiş, endogen proseslərin mahiyyətini və onların relyef əmələgətirici rolunu müəyyən etmişdir.

**1.4. Morfostruktur və morfoskulpturların yeni əsasda öyrənilməsi.** 1977-ci ildə B.Ə.Budaqovun təşəbbüsü və rəhbərliyi ilə Coğrafiya İnstitutunda aerokosmik üsulların coğrafiyaya tətbiqi laboratoriyası yaradıldı və onların əsasında Böyük Qafqazın şərq hissəsinin, Kiçik Qafqazın Azərbaycan hissəsinin və qonşu ərazilərin morfostrukturları öyrənildi. Aerokosmik şəkillərin struktur-geomorfoloji deşifrlənməsi nəticəsində dərinlik tektonik qırılmalara uyğun gələn xətti, qövsvari və dairəvi lineament-morfostrukturlar şəbəkəsi müəyyən edildi, Alp orogen dövründə formalaşmış müxtəlif mənşəli morfostrukturlar (qırışıq, qırışıq-qaymalı, şaryaj və s.) aşkar olundu, relyefin ən mühüm xüsusiyyətləri dərinlik strukturları ilə vəhdətdə öyrənildi və onların geodinamik inkişaf mərhələləri ayrıldı.

B.Ə.Budaqov Azərbaycanda geniş yayılmış palçıq vulkanlarının relyef əmələgətirici rolunu aydınlaşdırmış və onların irimiqyaslı geomorfoloji xəritələrini tərtib etmişdir.

**1.5. Hidroqrafik şəbəkənin yaranması və inkişafı tarixinin öyrənilməsi.** B.Ə.Budaqovun Böyük Qafqazda paleogeomorfoloji tədqiqatlarının uğurlu nəticələrindən biri də ərazidə qədim çay dərələrini aşkar etməsi, onların yaşlarını, dərələrin morfoloji və morfometrik xüsusiyyətlərini araşdırması olmuşdur. Müasir relyefdə saxlanılmış qədim çay dərələrinin izlərinə əsasən, onların təxminən 8-10 milyon il bundan əvvəl yarandığı göstərilir. B.Ə.Budaqov ərazidə paleo-Samur (aşağı dördüncü dövr, üst xəzər dövrü), paleo-

Dəvəçiçay-Ataçay (şimalda alt xəzər, cənub-şərq qurtaracaqda üst xvalın), paleo-Sudur-Buduqçay, paleo-Gilgilçay (üst sarmat, orta pliosen) dərələrinin olduğunu müəyyənləşdirmişdir.

B.Ə.Budaqov müasir çay dərələrinin genetik xüsusiyyətlərini, sıxlıq dərəcəsini, köndələn kəsilişlərinin morfologiyasını öyrənmiş, Böyük Qafqazın çay dərələrinin quruluşunda aşkar etdiyi qanunauyğunluğa əsasən onları qruplaşdıraraq, oxşar cəhətlərinə görə zonalar ayırmış və dərələri eninə profilinə görə sistemləşdirmişdir (V-yə bənzər dərələr, kanyonabənzər dərələr, subasar və terrasları olan çay dərələri, yarğanlardan ibarət "çay dərələri").

**1.6. Buzlaşmanın yeni sxemi və buzlaq relyef formalarının öyrənilməsi.** B.Ə.Budaqov Cənub-Şərqi Qafqazda apardığı kompleks geomorfoloji tədqiqatlarda dördüncü dövr buzlaşması məsələsinə xüsusi diqqət yetirmişdir. O, buzlaq relyef formalarını (karlar, təknəvari dərələr, "qoyun kəllələri", morenlər və s.) öyrənməklə onun inkişaf mərhələlərini, bu prosesin neotektonik mərhələdə inkişafını və onun müasir relyefə təsiri qanunauyğunluqlarını müəyyən etmişdir.

B.Ə.Budaqovun Cənub-Şərqi Qafqazın buzlaşma problemi sahəsindəki tədqiqatlarının nəticələrini aşağıdakı kimi ümumiləşdirmək olar: Böyük Qafqazın Azərbaycan hissəsində iki buzlaşmanın (Qusar, Şahnabad) izi saxlanılmışdır; birinci buzlaşma abşeron əsrinin ortalarında, ikinci buzlaşma isə mərhələlərlə üst xəzər, üst xvalın və yeni kaspidə baş vermişdir; buzlaşma Şahdağ və Qızılqaya istisna olmaqla, dağ-dərə tipli olmuşdur; buzlaşmada iqlim, oroqrafiya və tektonik hərəkətlər mühüm rol oynamışdır; başqa buzlaşma mərhələlərinin ərazidə aşkar olunmaması onların izlərinin sonradan tamamilə məhv edilməsi və ya basdırılması ilə əlaqədardır; müasir buzlaqlar qədim buzlaqların reliktidir və s.

**1.7. Geodinamik proseslər və onların tədqiqi.** B.Ə.Budaqov tədqiqata başladığı ilk illərdən ən aktual geomorfoloji problemlərdən sayılan sel hadisəsinin yaranması qanunauyğunluqlarını, inkişafı və başvermə səbəblərini tədqiq etmiş, onların və eləcə də sürüşmə, uçqun kimi dinamiki proseslərin ərazinin landşaft-ekoloji şəraitinə təsirini öyrənmişdir. Tədqiqatçı 1959-cu ildə Kişçay və Kürmükçay hövzələrində apardığı tədqiqatlarında selləri törədən antropogen və



meteoroloji amillərlə yanaşı, onların yeni tektonik hərəkətlə və geoloji-geomorfoloji quruluşla əlaqəsini müəyyən etmiş, ilk dəfə olaraq respublikamızda sel çöküntülərinin genetik təsnifatını vermiş, sel əmələgətirən ocaqları, moren və sel çöküntülərinin struktur fərqini aşkar etmiş, Azərbaycanın selli çay hövzələrinin sellilik dərəcəsinə görə xəritəsini tərtib etmişdir.

Alim paleocoğrafi və müasir geomorfoloji müşahidələr əsasında əldə etdiyi faktiki materiallarla sellərin fəallaşmasını sübut etmiş, sel proqnozunun verilməsinin mümkünlüyünü və selə qarşı mübarizə tədbirlərinin aparılması üsullarını (passiv, fəal) işləyib hazırlamışdır.

B.Ə.Budaqov keçmiş SSRİ-də qravitasiya proseslərinin (sürüşmə, uçqun və s.) öyrənilməsində ən tanınmış tədqiqatçılardan biri sayılır. O, Azərbaycanda apardığı tədqiqatlar əsasında sürüşmələrin tədqiqat tarixi, təsnifatı, genetik tiplərə bölünməsi məsələləri ilə məşğul olmuş və intensivlik dərəcəsinə görə rayonlaşma xəritəsini (1:500000) tərtib etmişdir.

Akademikin əsərlərində arid-denudasiya, eol, karst və s. proseslərin yaratdığı relyef formaları haqqında geniş məlumat verilir və onların yaranmasında kompleks amillərin rolu ətraflı izah olunur.

## II Fəsil. B.Ə.Budaqovun landşaftşünaslıq sahəsində tədqiqatları

Bu fəsildə alimin landşaftşünaslığın nəzəri və əməli məsələləri - landşaftların yaranması, inkişafı, diferensiasiya və tarnsformasiyası qanunauyğunluqları, respublika ərazisinin və onun ayrı-ayrı bölgələrinin fiziki-coğrafi (landşaft) rayonlaşdırılması və xəritələşdirilməsi, landşaftların mühafizəsi, bərpası və təsərrüfatın landşaftlar üzrə yerləşdirilməsi istiqaməti sahəsindəki fəaliyyəti araşdırılır.

**2.1. Landşaftşünaslığın tətbiqi və nəzəri məsələləri.** B.Ə.Budaqovun landşaftşünaslığın kompleks məsələlərinə həsr edilmiş yüzdən çox tədqiqat əsəri, əsasən, landşaftşünaslıq-geomorfologiya, landşaftşünaslıq-tektonika, landşaftşünaslıq-ekologiya və landşaftşünaslıq-insanın təsərrüfat fəaliyyəti istiqamətlərini əhatə edir.

B.Ə.Budaqov sovet landşaftşünaslıq elmində, ilk dəfə olaraq, landşaftın tipoloji bölgüsünə (sinif bölgüsünə qədər) bir meqasinif (Yer kürəsi) və iki mezosinif (materiklər və okeanlar) daxil etmişdir

ki, bu da landşaftşünaslıq sahəsində keçmiş SSRİ miqyasında ön sırada duran nəzəri coğrafiyanın mühüm nəticələrindən biri kimi dəyərləndirilir.

**2.2. Landşaftların formalaşmasının yeni tektonik hərəkətlərlə əlaqəsinin tədqiqi.** B.Ə.Budaqov Azərbaycan landşaftşünaslığı tarixində, ilk dəfə olaraq, yeni tektonik hərəkətlərin landşaftın yaranmasında rolunu öyrənmiş və həmin konsepsiyası onun bu sahədəki tədqiqatlarının nəzəri əsasını təşkil etmişdir.

B.Ə.Budaqovun landşaft-neotektonika istiqamətində apardığı elmi-tədqiqat işlərinin təhlili əsasında onun bu sahədə əldə etdiyi nailiyyətlərin əhəmiyyətini aşağıdakı kimi ümumiləşdirmək olar: 1. İlk dəfə olaraq yeni tektonik hərəkətlərin müasir landşaftların formalaşmasına və inkişafına təsirinin öyrənilməsi ilə bağlı nəzəri cəhətdən əsaslandırılmış elmi dəlillər irəli sürüldü; 2. Landşaft-relyef və landşaft-tektonika istiqamətində apardığı tədqiqatlar Azərbaycan landşaftşünaslığı sahəsində yeni mərhələ oldu; 3. İlk dəfə olaraq yeni tektonik hərəkətlərin Azərbaycan ərazisində müasir landşaftın formalaşmasına və inkişafına təsirinin öyrənilməsinin vacibliyi sübut edildi; 4.Bu tədqiqatlarda yeni tektonik hərəkətlərlə landşaftın məkan və zaman daxilində formalaşma əlaqələri aşkar edildi; 5. Yeni tektonik hərəkətlərin relyef vasitəsilə landşaftların əmələ gəlməsi və formalaşmasında iştirak edən əsas amil kimi araşdırılması ön plana çəkildi.

**2.3. Palçıq vulkanları landşaftının tədqiqi.** B.Ə.Budaqov Azərbaycan üçün səciyyəvi olan palçıq vulkanlarının geniş yayıldığı ərazilərin (Qobustan, Abşeron, Kür çökəkliyi) landşaftlarının yaranması, inkişafı, diferensiasiya və transformasiya qanunauyğunluqlarının ilk tədqiqatçısıdır. O, Azərbaycanda ilk dəfə olaraq palçıq vulkanlarının irimiqyaslı landşaft (1:25000) xəritəsini tərtib etmişdir (A.A.Mikayılovla birlikdə).

**2.4. Landşaftların şaquli və üfüqi diferensiasiyası.** B.Ə.Budaqovun landşaftın müxtəlif problemlərinə həsr edilmiş çoxsaylı tədqiqat işlərində müasir landşaftların formalaşmasında, inkişafında və diferensiasiyasında hər bir landşaft əmələgətirici komponentin rolu ayrı-ayrılıqda hərtərəfli və dərindən təhlil edilir. O, dağlıq ərazilərdə landşaft komplekslərinin tipoloji və morfoloji



diferensiasiya səbəblərini araşdıraraq, landşaftların yüksəklik strukturunda baş verən dəyişikliklərin üfüqi istiqamətdə də özünü göstərməsini aşkar etmişdir.

**2.5. Antropogen landşaftların öyrənilməsi.** B.Ə.Budaqovun tədqiqatlarının respublikamızın təbii-antropogen landşaftlarının sistemli şəkildə öyrənilməsində, antropogen amillərin landşaftların məhsuldarlığına, ekoloji dayanıqlığına mənfi təsirinin aşkarlanmasında, landşaftın formalaşmasında, inkişafında, dinamikasında və daxili diferensiasiyasında rolunun müəyyən edilməsində mühüm xidmətləri vardır.

B.Ə.Budaqov, ilk dəfə olaraq, 1970-ci ildə respublikanın kiçikmiqyaslı (1:3000000) landşaft xəritəsini, 1978-ci ildə Ə.C.Əyyubovla birlikdə Azərbaycan ərazisinin landşaft tipləri və fiziki-coğrafi rayonlaşma xəritəsini (1:600000) tərtib etmiş, 1983-cü ildə Zaqafqaziyanın ortamiqyaslı (1:600000) xəritəsinin müəlliflərindən biri olmuşdur. Onun M.Museyibovla birlikdə 1975-ci ildə tərtib etdiyi Azərbaycanın fiziki-coğrafi (landşaft) rayonlaşma xəritəsi respublikanın fiziki-coğrafi rayonlaşmasına dair verilmiş sxemlərin təkmilləşdirilməsində və ayrılmış taksonomik-tipoloji vahidlərin dəqiqləşməsində əsas götürülür.

B.Ə.Budaqov Azərbaycan ərazisində aparılmış yeni iqtisadi rayonlaşma sxeminin müəlliflərindən biridir (B.Ə.Budaqov, A.Museyibov, A.A.Nadirov və b-rı.).

## III Fəsil. B.Ə.Budaqovun toponimika və terminologiya sahəsində tədqiqatları

Bu fəsil B.Ə.Budaqovun Azərbaycan və türk dünyası toponimiyasının öyrənilməsi sahəsindəki tədqiqatlarına və bu tədqiqatların elmi-tarixi-siyasi əhəmiyyətinə həsr olunub.

**3.1. Coğrafi terminologiya və toponimlərin öyrənilməsi sahəsində apardığı ümumi tədqiqatlar.** B.Ə.Budaqov Azərbaycanda ilk dəfə olaraq toponimlərin fiziki-coğrafi əsasını işləmiş, palçıq vulkanlarının adlarının mənşəyini aydınlaşdırmış, "Kitabi-Dədə Qorqud" dastanındakı toponimləri araşdırmaqla onun Azərbaycana daha çox bağlı olması fikrini dəqiqləşdirmişdir. O, toponimlərin landşaft xüsusiyyətlərinə, anlaşılma dərəcəsinə və miqyasına görə təsnifatını vermişdir.

ki, bu da landşaftşünaslıq sahəsində keçmiş SSRİ miqyasında ön sırada duran nəzəri coğrafiyanın mühüm nəticələrindən biri kimi dəyərləndirilir.

**2.2. Landşaftların formalaşmasının yeni tektonik hərəkətlərlə əlaqəsinin tədqiqi.** B.Ə.Budaqov Azərbaycan landşaftşünaslığı tarixində, ilk dəfə olaraq, yeni tektonik hərəkətlərin landşaftın yaranmasında rolunu öyrənmiş və həmin konsepsiyası onun bu sahədəki tədqiqatlarının nəzəri əsasını təşkil etmişdir.

B.Ə.Budaqovun landşaft-neotektonika istiqamətində apardığı elmi-tədqiqat işlərinin təhlili əsasında onun bu sahədə əldə etdiyi nailiyyətlərin əhəmiyyətini aşağıdakı kimi ümumiləşdirmək olar: 1. İlk dəfə olaraq yeni tektonik hərəkətlərin müasir landşaftların formalaşmasına və inkişafına təsirinin öyrənilməsi ilə bağlı nəzəri cəhətdən əsaslandırılmış elmi dəlillər irəli sürüldü; 2. Landşaft-relyef və landşaft-tektonika istiqamətində apardığı tədqiqatlar Azərbaycan landşaftşünaslığı sahəsində yeni mərhələ oldu; 3. İlk dəfə olaraq yeni tektonik hərəkətlərin Azərbaycan ərazisində müasir landşaftın formalaşmasına və inkişafına təsirinin öyrənilməsinin vacibliyi sübut edildi; 4.Bu tədqiqatlarda yeni tektonik hərəkətlərlə landşaftın məkan və zaman daxilində formalaşma əlaqələri aşkar edildi; 5. Yeni tektonik hərəkətlərin relyef vasitəsilə landşaftların əmələ gəlməsi və formalaşmasında iştirak edən əsas amil kimi araşdırılması ön plana çəkildi.

**2.3. Palçıq vulkanları landşaftının tədqiqi.** B.Ə.Budaqov Azərbaycan üçün səciyyəvi olan palçıq vulkanlarının geniş yayıldığı ərazilərin (Qobustan, Abşeron, Kür çökəkliyi) landşaftlarının yaranması, inkişafı, diferensiasiya və transformasiya qanunauyğunluqlarının ilk tədqiqatçısıdır. O, Azərbaycanda ilk dəfə olaraq palçıq vulkanlarının irimiqyaslı landşaft (1:25000) xəritəsini tərtib etmişdir (A.A.Mikayılovla birlikdə).

**2.4. Landşaftların şaquli və üfüqi diferensiasiyası.** B.Ə.Budaqovun landşaftın müxtəlif problemlərinə həsr edilmiş çoxsaylı tədqiqat işlərində müasir landşaftların formalaşmasında, inkişafında və diferensiasiyasında hər bir landşaft əmələgətirici komponentin rolu ayrı-ayrılıqda hərtərəfli və dərindən təhlil edilir. O, dağlıq ərazilərdə landşaft komplekslərinin tipoloji və morfoloji



diferensiasiya səbəblərini araşdıraraq, landşaftların yüksəklik strukturunda baş verən dəyişikliklərin üfüqi istiqamətdə də özünü göstərməsini aşkar etmişdir.

**2.5. Antropogen landşaftların öyrənilməsi.** B.Ə.Budaqovun tədqiqatlarının respublikamızın təbii-antropogen landşaftlarının sistemli şəkildə öyrənilməsində, antropogen amillərin landşaftların məhsuldarlığına, ekoloji dayanıqlığına mənfi təsirinin aşkarlanmasında, landşaftın formalaşmasında, inkişafında, dinamikasında və daxili diferensiasiyasında rolunun müəyyən edilməsində mühüm xidmətləri vardır.

B.Ə.Budaqov, ilk dəfə olaraq, 1970-ci ildə respublikanın kiçikmiqyaslı (1:3000000) landşaft xəritəsini, 1978-ci ildə Ə.C.Əyyubovla birlikdə Azərbaycan ərazisinin landşaft tipləri və fiziki-coğrafi rayonlaşma xəritəsini (1:600000) tərtib etmiş, 1983-cü ildə Zaqafqaziyanın ortamiqyaslı (1:600000) xəritəsinin müəlliflərindən biri olmuşdur. Onun M.Museyibovla birlikdə 1975-ci ildə tərtib etdiyi Azərbaycanın fiziki-coğrafi (landşaft) rayonlaşma xəritəsi respublikanın fiziki-coğrafi rayonlaşmasına dair verilmiş sxemlərin təkmilləşdirilməsində və ayrılmış taksonomik-tipoloji vahidlərin dəqiqləşməsində əsas götürülür.

B.Ə.Budaqov Azərbaycan ərazisində aparılmış yeni iqtisadi rayonlaşma sxeminin müəlliflərindən biridir (B.Ə.Budaqov, A.Museyibov, A.A.Nadirov və b-rı.).

## III Fəsil. B.Ə.Budaqovun toponimika və terminologiya sahəsində tədqiqatları

Bu fəsil B.Ə.Budaqovun Azərbaycan və türk dünyası toponimiyasının öyrənilməsi sahəsindəki tədqiqatlarına və bu tədqiqatların elmi-tarixi-siyasi əhəmiyyətinə həsr olunub.

**3.1. Coğrafi terminologiya və toponimlərin öyrənilməsi sahəsində apardığı ümumi tədqiqatlar.** B.Ə.Budaqov Azərbaycanda ilk dəfə olaraq toponimlərin fiziki-coğrafi əsasını işləmiş, palçıq vulkanlarının adlarının mənşəyini aydınlaşdırmış, "Kitabi-Dədə Qorqud" dastanındakı toponimləri araşdırmaqla onun Azərbaycana daha çox bağlı olması fikrini dəqiqləşdirmişdir. O, toponimlərin landşaft xüsusiyyətlərinə, anlaşılma dərəcəsinə və miqyasına görə təsnifatını vermişdir.

**3.2. Türk dünyası toponimlərinin tədqiqi.** B.Ə.Budaqov türk dünyasının coğrafi adlarının elmi təhlilinə həsr edilmiş tədqiqatlarında ilk dəfə olaraq türkdilli xalqların coğrafi adları arasında oxşarlar (paralellər) aşkar etmiş, bununla da toponimlərin tarixi sərhədlərini və miqrasiya yollarını müəyyənləşdirmiş, türkdilli xalqların indikinə nisbətən daha geniş ərazilərdə yaşadıqlarını və bu ərazilərin avtoxton etnosu olmasını təsdiq etmişdir. Tədqiqatlardan aydın olur ki, türk xalqlarının toponimləri fonetik və leksik xüsusiyyətləri ilə fərqlənsələr də, vahid qanunauyğunluq əsasında yaranmış sistem təşkil edərək eyni struktur və mənşəyə malikdir.

**3.3. Toponimik lüğətlərin tərtibi.** B.Ə.Budaqovun Ermənistan, Gürcüstan, Dağıstan ərazilərindəki türk mənşəli toponimlərin tədqiqi və bu sahədəki əsərləri (1998, 2002) Cənubi Qafqazda və Azərbaycanda yaşamış türklərin tarixi-coğrafi arealını, təşəkkül və inkişaf tarixini əks etdirən ən dəyərli qaynaqlar olmaqla böyük tarixi əhəmiyyət kəsb edir.

Alim Q.Ə.Qeybullayev və N.G.Məmmədovla birgə Azərbaycanın ayrı-ayrı regionlarının toponimiyasına (Naxçıvan 2004; Lənkəran 2008) həsr edilmiş əsərlərindəki toponimlərin mənşəyinin təhlilinə əsasən, Azərbaycanın hər bir bölgəsinin zəngin tarixə malik olduğunu, bu regionlarda qədim və orta əsrlərdən azərbaycanlıların hakim mövqedə durmasını, digər xalqların toponimlərinin isə türk toponimik fonunda formalaşdığını göstərmişdir.

B.Ə.Budaqov ilk dəfə olaraq institut əməkdaşları (M.Ə.Abbasova, Ş.K.Əzizov) ilə birlikdə statistik göstəricilər, cədvəllər və formant üsulu əsasında coğrafi adların 1:1500000 miqyaslı toponimik xəritələrinin tərtib etmişdir (2008).

## IV Fəsil. B.Ə.Budaqovun ekologiya və ətraf mühitin mühafizəsi sahəsində tədqiqatları

Bu fəsildə B.Ə.Budaqovun ekologiya və ətraf mühitin mühafizəsi sahəsindəki tədqiqatları təhlil edilmiş, onun ekoloji coğrafiyanın inkişafında, xalqın ekoloji mədəniyyətinin yüksəlməsində, ətraf mühitin şüurlu olaraq qorunması və təbii sərvətlərdən səmərəli istifadə edilməsi işinin təşkilində və s. rolu öyrənilmişdir.

**4.1. B.Ə.Budaqovun ekologiyanın ümumi problemləri sahəsində tədqiqatları.** B.Ə.Budaqovun ekologiya və təbiəti mühafizə sahəsindəki tədqiqatlarını aşağıdakı istiqamətlərə ayırmaq olar: 1) təbiətin kortəbii hadisələrinin öyrənilməsi, sistemləşdirilməsi və proqnozlaşdırılması; 2) təbiət-insan münasibətinin öyrənilməsi və antropogen təsirlərin nəticələri; 3) təbii ehtiyatlardan səmərəli istifadə və onun qorunması; 4) təbiət gözəlliklərinin tərənnümü və bu tərənnümün təbiəti sevməyə yönəldilməsi.

**4.2. Təbii dağıdıcı proseslərin tədqiqi.** B.Ə.Budaqov təbiətin kortəbii və ekstremal hadisələrinin mahiyyəti və onlarla əlaqədar məsələlərin həlli yollarını araşdıraraq, həmin hadisələrin elmi təsnifatını vermişdir. İstər öz kompleksliliyinə, istərsə də məntiqi ardıcıllığına görə mühüm elmi-nəzəri və elmi-praktiki əhəmiyyət kəsb edən bu təsnifatda alim təbiət hadisələrini tiplərə bölmüş, onları əmələgəlmə şəraitinə, başvermə formaları və müddətlərinə görə qruplaşdırmışdır.

**4.3. Ekoloji-coğrafi rayonlaşma.** B.Ə.Budaqov Azərbaycan ərazisində ilk dəfə olaraq ekoloji gərginlik dərəcəsinə görə ekoloji-coğrafi rayonlaşma xəritəsini (1:500000) tərtib etmişdir (2007). Alim xəritənin tərtib prinsipini işləmiş, təbii, antropogen və təbii-antropogen amillərin qarşılıqlı təsir dərəcəsinin maksimum həddini əsas götürmüşdür. Bu xəritə ekoloji gərginliyin yaranma səbəblərinin öyrənilməsində, gələcəkdə baş verə biləcək dəyişikliklərin proqnozlaşdırılmasında, istehsal sahələrinin düzgün yerləşdirilməsində və s. mühüm əhəmiyyət daşıyır. O, bu rayonlaşmada ilk dəfə olaraq Azərbaycan ərazisinin sahil zonasına aid olan dəniz regionlarını da daxil etmişdir.

B.Ə.Budaqovun əsərlərində silahlanma, dağıdıcı müharibələr, geofiziki üsullardan istifadə məsələləri pislənir, sənayenin sürətli inkişafı ilə bağlı olaraq təbiətdə gedən "paslaşma prosesi" və texniki səslərin təsiri ilə "səs landşaftı"nın pozulması məsələləri ətraflı təhlil edilir, demoqrafik yükün çoxluğunun və sıxlığının göstəricisi olan bu problemlərin aradan qaldırılması üçün bir çox mübarizə tədbirləri tövsiyə olunur.

**4.4. Təbiət abidələrinin sistemləşdirilməsi.** B.Ə.Budaqov ümumbəşəri sərvət hesab olunan təbiət abidələrini qruplaşdırmış (geoloji, geomorfoloji, hidroloji, hidrogeoloji, bioloji), onları əhəmiyyətinə görə dünya əhəmiyyətli, respublika əhəmiyyətli və

yerli əhəmiyyətli abidələrə ayırmışdır. Bu təsnifatın əhəmiyyəti qorunmalı olan təbiət obyektlərinin seçilməsi, mühafizəsi, təbliğ olunması, milli park, qoruq və yasaqlıqların yaradılması, ölkə daxili və beynəlxalq turizm marşrutlarının müəyyənləşdirilməsi baxımından mühüm əhəmiyyət daşıyır.

**4.5. Xəzər və Xəzərətrafı ərazilərin ekoloji problemlərinin öyrənilməsi.** B.Ə.Budaqovun tədqiqatlarında Xəzər və Xəzərətrafı ərazilərin problemlərinin araşdırılması mühüm elmi-nəzəri və əməli əhəmiyyət kəsb edir. O, Xəzərsahili ərazilərdə təbii və antropogen amillərin təsiri ilə genişlənməkdə olan səhralaşma prosesinə qarşı elmi əsaslarla mübarizə tədbirlərinin hazırlanmasında fəal iştirak etmiş, bu sahədəki elmi uğurlarına görə Mərkəzi Asiya Səhraları Şurasının üzvü seçilmişdir (1997, Daşkənd). B.Ə.Budaqov Xəzərin dəniz, yoxsa göl olması məsələsinə də toxunaraq, onun elmi və siyasi məzmununu açıqlamış və hər iki halda Xəzərin göl mahiyyətinin inkaredilməz həqiqət olduğunu əsaslandırmışdır.

**4.6. Azərbaycan Respublikasında turizmin inkişaf modelinin hazırlanması.** B.Ə.Budaqovun Azərbaycan Respublikasında turizmin inkişaf modelinin hazırlanması sahəsindəki fikirləri böyük maraq doğurur. Bu modeldə Azərbaycanın ayrı-ayrı regionlarının turist marşrutları müəyyən edilmiş və hər region üzrə onların təbii şəraiti və təbii ehtiyatları, təbii-tarixi-dini-mədəni abidələri, nadir landşaft guşələri, əhalinin təsərrüfat məşğuliyyəti və məişəti haqqında məlumat verilmişdir.

## V Fəsil. B.Ə.Budaqovun elmin təşkili, coğrafiya tarixi və publisistika sahəsindəki tədqiqatları

Fəsildə alimin elmin təşkili, məktəb coğrafiyası, coğrafiya tarixi və publisistika sahəsindəki fəaliyyəti, həmçinin təbiət və poeziya mövzusu üzrə apardığı tədqiqatları araşdırılmışdır.

**5.1. Məktəb coğrafiyası, kadr hazırlığı və coğrafi dərsliklər sahəsində fəaliyyəti.** B.Ə.Budaqov VIII sinif üçün "Azərbaycan SSRİ-nin coğrafiyası" (H.B Əliyevlə birlikdə, 1983) dərsliyini yazmış və bu dərslik dəfələrlə (1983, 1991, 1993, 2000 və s.) nəşr edilmişdir (ak. H.Əliyev, B.Apoyev, Y.Qəribovla birgə). O həmçinin ali məktəblər üçün "Ümumi geomorfologiya" (1967, 1986, 2012)



dərsliyinin müəlliflərindən biridir (M.A.Museyibov və N.Ş.Şirinov ilə birgə).

Onun təhsilin məzmunu, təlim metodları, təlimin prinsipləri, şəxsiyyətin hərtərəfli inkişafına təsir göstərən bir çox pedaqoji problemlərlə bağlı irəli sürdüyü elmi-nəzəri fikirləri bu gün də aktuallığını saxlayır.

B.Ə.Budaqovun elmi kadrların hazırlanmasında müstəsna rolu olmuşdur. Onun 1958-ci ildən başlayaraq coğrafiyanın ayrı-ayrı sahələri üzrə (geomorfologiya, landşaftşünaslıq, toponimika, ekologiya və s.) hazırladığı onlarla elmi kadrlar arasında Rusiya Federasiyasının, Qazaxıstan, Qırğızıstan və s. respublikaların alimləri də vardır.

**5.2. Coğrafi fikir tarixi sahəsində tədqiqatları.** B.Ə.Budaqovun coğrafi fikir tarixi sahəsindəki tədqiqatları Azərbaycan elminin ümumdünya elmində tutduğu mövqeyi, müəlliflərin yaradıcılığının əhəmiyyətini, məzmun və ideya xüsusiyyətlərini açıb göstərməkdə, habelə coğrafiya tarixinin tədqiqini sadə təsvirçilikdən uzaqlaşdıraraq tarixi və elmi təhlil əsasında ümumiləşdirməyə yönəldir.

**Xəritə-sxem 1.**

AKADEMİK B.Ə.BUDAQOVUN XARİCİ ÖLKƏLƏRƏ SƏFƏRLƏRİ



Onun bu sahədəki tədqiqatları müxtəlif dövrlərin nəsillərini birləşdirir, hər hansı bir xalqın coğrafi təfəkkürü haqqında aydın təsəvvür yaradır, müxtəlif dövrlərdə yaşamış alimlərin təbiətə, təbiət hadisələrinə münasibəti, təbii fəlakətlərə qarşı apardıqları mübarizə tədbirləri haqqında dolğun biliklər verir.

**5.3. Publisistik fəaliyyəti.** B.Ə.Budaqov publisistik yaradıcılığında təbiəti, vətənpərvərliyi, elmi və elm xadimlərini, milli-mənəvi dəyərləri təbliğ etməklə yanaşı, həm də coğrafiyanın, tarixin, ədəbiyyatın, mədəniyyətin, iqtisadiyyatın, siyasətin müxtəlif problemlərini işıqlandırmışdır. Onun bir çox əsərlərində Azərbaycan türklərinin həyatı, psixoloji aləmi, fəlsəfi görüşləri, dini və mifoloji təsəvvürləri, adət-ənənələri, etnoqrafiyası, görkəmli şəxsiyyətləri haqqında maraqlı məlumatlar verilir.

B.Ə.Budaqovun elmi və elmi-publisistik əsərlərində geniş yer tutan mövzulardan biri də folklorla bağlıdır. Onun bir çox əsərlərində xalq yaradıcılığı nümunələri ilə coğrafi hadisə və qanunauyğunluqların əlaqələndirilməsinə aid xeyli misallar var. Maraqlıdır ki, alim ciddi elmi yaradıcılığında yeri gəldikcə xalq yaradıcılığı nümunələrindən istifadə etmişdir.

B.Ə.Budaqov bir neçə (5) filmin ssenari müəllifi olmuşdur.

**5.4. Təbiət və poeziya haqqında.** Burada B.Ə.Budaqovun təbiət və poeziya mövzusu ilə bağlı tədqiqatları araşdırılmış, onun şairlərin yaradıcılığına bir neçə istiqamətdə (təbiət gözəlliklərinin vəsfi, ətraf mühitin mühafizəsi, təbii ehtiyatlardan səmərəli istifadə, ayrı-ayrı təbiət komponentlərinə yanaşma tərzi və s.) münasibəti öyrənilmişdir.

B.Ə.Budaqovun təbiət və poeziya sahəsində yazdığı əsərlərlə tanışlıq aşağıdakı fikirləri söyləməyə əsas verir: 1.Təbiətin poeziyası təbiətin fəlsəfəsinin və estetikasının sözlə nizamlı şəkildə ifadəsidir; 2.Təbiətin poeziyası elmi təfəkkürlə obrazlı təfəkkürü birləşdirir. 3. Təbiət, gözəllik və sağlam təfəkkür anlayışları ayrılmazdır. 4. Təbiətin poeziyası zəngin biliklərdən, fitri istedaddan və təbiətə məhəbbətdən yaranır. 5.Təbiəti sevmədən və tanımadan onu poeziyaya gətirmək olmaz.



## NƏTİCƏLƏR

B.Ə.Budaqovun yaradıcılığının əsas elmi istiqamətlərinin və elmi-təşkilati fəaliyyətinin təhlili, Azərbaycan coğrafiya elminin inkişafında onun rolunun araşdırılması əsasında aşağıdakı nəticələr əldə edilmişdir:

1. Akademik B.Ə.Budaqov Azərbaycanda coğrafiyanın bir sıra sahələrinin əsasını qoymuş, inkişaf etdirmiş və elmi məktəblər yaratmışdır.
2. Akademik B.Ə.Budaqov özündən əvvəlki tədqiqatçılara əsaslanaraq ölkəmizdə geomorfologiya elminin bünövrəsini yaradan ilk alimlərdən biri olmuşdur. O, bütün ölkə ərazisinin, xüsusi ilə də Cənub-Şərqi Qafqazın relyefinin öyrənilməsinin ən yeni elmi-nəzəri və metodiki əsaslarını yaratmışdır.
3. Akademik B.Ə.Budaqov dünya təcrübəsinə əsaslanmaqla Azərbaycan geomorfologiyasına aid ilk monoqrafiya çap etdirmiş, Cənub-Şərqi Qafqazdakı çay terraslarını dəniz terrasları, düzəlmə səthləri və s. ilə müqayisə edərək ərazinin relyefinin inkişaf mərhələlərini dəqiqliklə müəyyən etmişdir ki, bunlar digər ərazilərin geomorfoloji tədqiqində metodik əsas kimi istifadə edilə bilər.
4. Akademik B.Ə.Budaqov Böyük Qafqaz daxilində qədim və müasir buzlaqların yaşını, yayılma arealını geomorfoloji göstəricilərə əsasən müəyyənləşdirmiş, əvvəlki tədqiqatlara əsaslanmaqla bu elm sahəsinə prinsipial yeniliklər gətirmiş, onların geoxronologiyası və inkişaf mərhələlərini vermişdir ki, bu digər dağlıq ərazilərdəki oxşar tədqiqatlar üçün metodik əsas olmuşdur.
5. Akademik B.Ə.Budaqov respublikada sel və sürüşmə kimi təbii-dağıdıcı hadisələrin ilk tədqiqatçılarından olmuş, bu hadisələrin yaranmasının landşaft-geomorfoloji əsaslarını öyrənmiş, genetik təsnifatını vermiş, onların vura biləcəyi zərərin qarşısını almaq üçün qabaqlayıcı mühəndis-geomorfoloji tədbirlər müəyyənləşdirib tətbiqi haqqında təkliflər irəli sürmüşdür. Bunların tətbiqi respublikada bu hadisələrin vurduğu zərərləri xeyli azaltmağa imkan verir.

6. Akademik B.Ə.Budaqov Azərbaycanda landşaftşünaslıq elminin əsasını qoymaqla böyük bir məktəb yaratmışdır. Xüsusilə də yeni tektonik hərəkətlərin landşaftların yaranmasındakı rolunun müəyyənləşdirilməsinə həsr edilmiş tədqiqatları böyük uğur qazanmış və onlar beynəlxalq səviyyədə yüksək qiymətləndirilmişdir.
7. Akademik B.Ə.Budaqov Azərbaycan ərazisinin ekoloji-coğrafi gərginlik dərəcəsinə görə rayonlaşdırılmasının ilk dəfə olaraq elmi-nəzəri əsasını hazırlayıb tətbiq etmişdir.
8. Akademik B.Ə.Budaqov respublikamızda və ondan kənarda (Gürcüstan və Ermənistanda) olan türk mənşəli toponimləri toplamış, tədqiq etmiş, xalqımızın Qafqazın avtoxton xalqı olduğunu bir daha sübut etmişdir. Bununla o, torpaqlarımıza göz dikən qonşulara çox tutarlı cavab vermişdir ki, bunun da böyük elmi-siyasi əhəmiyyəti vardır.



Sxem 5.1.

**Akademik B.Ə.Budaqovun 1956-2011-ci illərdə elmi və elmi-pedaqoji fəaliyyətini əks etdirən diaqram**



**Dissertasiya işinin əsas nəticələri aşağıdakı əsərlərdə dərc olunmuşdur:**

1. B.Ə.Budaqovun turizm sahəsindəki tədqiqatları / "Turizm və rekreasiya: problemlər və perspektivlər" ikinci Respublika elmi-praktiki konfransın materialları. Bakı: 2008, s.49-52.

2. Azərbaycan coğrafi adlarının uğurlu tədqiqatçısı // Azərb. Coğrafiya Cəmiyyətinin BDU filialının əsərləri, Bakı: 2008, s. 236-242.

3. B.Ə.Budaqovun Cənub-Şərqi Qafqazın buzlama probleminin öyrənilməsində rolu / Azərb. Coğrafiya Cəmiyyətinin əsərləri. XIV c. Bakı, 2009, s. 65-68. (H.A.Xəlilovla birlikdə).

4. Xəzər və Xəzərsahili ərazilərin problemləri B.Ə.Budaqovun tədqiqatlarında / Azərbaycan Coğrafiya Cəmiyyətinin əsərləri, XV c. Bakı: 2010, s. 326-329.

5. Alimin elmi fəaliyyətində məktəb coğrafiyası // Azərbaycan məktəbi, 2010, №6, s. 72-75.

6. Relyefin formalaşmasında iqlimin rolu B.Ə.Budaqovun tədqiqatlarında / Azərbaycan Coğrafiya Cəmiyyətinin BDU filialının əsərləri. III c. Bakı: 2010, 189-195.

7.B.Ə.Budaqov Azərbaycanın ilk geomorfoloq alimlərindəndir. Azərbaycan Coğrafiya Cəmiyyətinin əsərləri, XVI c. Bakı: 2011, s.17-24. (H.A.Xəlilovla birlikdə).

8. Akademik B.Ə.Budaqov landşaftların formalaşmasında yeni tektonik hərəkətlərin rolunu öyrənən ilk tədqiqatçıdır // AMEA-nın Xəbərləri, Yer elmləri seriyası. №2., Bakı, 2012, s. 102-105.

9. Академик Б.А.Будагов – основоположник школы топонимики тюркского мира в Азербайджане /«Поиск», научный журнал. Серия естественных и технических наук. № 3. Алматы, 2012, с. 164-168.

10. Роль Московской геоморфологической школы в научных достижениях академика Б.А.Будагова // «Геоморфология». №1. Москва, 2013, с. 113-118. ( совместно с Г.А.Халиловым).



*Мамедова Флора Вахид кызы*

## ОСНОВНЫЕ НАПРАВЛЕНИЯ НАУЧНОЙ ДЕЯТЕЛЬНОСТИ АКАДЕМИКА Б.А.БУДАГОВА И ЕГО РОЛЬ В РАЗВИТИИ ГЕОГРАФИЧЕСКОЙ НАУКИ АЗЕРБАЙДЖАНА

### РЕЗЮМЕ

Диссертационная работа посвящена роли творчества, новаторства и научно-организационной деятельности академика Б.А.Будагова в развитии национальной географии и формировании отдельных её ветвей в Азербайджане, а также в определении перспективных направлений науки и в воспитании высококвалифицированных специалистов.

Первая глава посвящена исследованиям Б.А.Будагова в области геоморфологии, где рассматриваются успехи его в изучении геодинамических процессов морфогенеза, происхождения, возраста, закономерностей эволюции и формирования рельефа.

Во второй главе изложены основополагающая роль Б.А.Будагова в развитии ландшафтоведения в Азербайджане и его заслуги в обосновании решающей роли неотектонических движений в развитии ландшафтов.

Третья глава посвящена исследованиям и достижениям Б.А.Будагова в области изучения географических терминов, проблем разработки географической терминологии и географических словарей, а также в развитии топонимии Азербайджана.

Четвертая глава содержит анализ значимости проведенных Б.А.Будаговым исследований в области экологии и охраны природы, экологического районирования, рационального использования природных ресурсов.

Пятая глава посвящена научно-организационной деятельности Б.А.Будагова, его заслугам в подготовке высококвалифицированных научных кадров, вкладу в школьную географию, исследованиям в области природы и поэзии и т.д.

По теме диссертации опубликовано 10 статей.

*Mammadova Flora Vahid gyzy*

## BASIC DIRECTIONS OF THE SCIENTIFIC ACTIVITY OF ACADEMICIAN B.A.BUDAQOV AND HIS ROLE IN DEVOLEPMENT OF GEOGRAPICAL SCIENCE IN AZERBAIJAN

### SUMMARY


The dissertation work is devoted to the role of creative work and scientific-organizational activity of Academician B.A.Budaqov and his innovating in development of national geography and forming of its separate branches in Azerbaijan, and in training of highly qualified specialists as well.

The first chapter is dedicated to B.A.Budaqov's researches in the field of geomorphology where is considered his successes in study of geodynamic processes of morphogenesis, origin, age, regularities of evolution and forming of relief.

B.A.Budaqov's basic role in development of landscape science in Azerbaijan is elucidated in the second chapter.

The researches and successes of B.A.Budaqov in the fields of geographical terms, problems of working out of geographical terminology and geographical glossaries are considered in the third chapter.

The fourth chapter contains the analysis of importance of researches carried out by B.A.Budaqov in the fields of ecology and nature protection, ecological regioning, rational utilization of natural resources.

The fifth chapter is devoted to the scientific-organizational activity of B.A.Budaqov, his services in training of highly qualified scientific personnel, contribution in school geographyetc.

10 articles have been published on the theme.





Kağız formatı 60x84, 1/16
Fiziki çap vərəqi 1,5
Tiraj 100

AMEA-nın mətbəəsində çap olunmuşdur